**DOI:** https://doi.org/10.59849/2957-3882.2025.2.52

# ƏRƏB ƏDƏBİYYATINDA “BƏNU HİLAL” DASTANIN YARANMA TARİXİ VƏ İDEYA-MƏZMUN ÖZƏLLİKLƏRİ

**Sevinc HƏZRƏTQULİYEVA**
*AMEA Ziya Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, doktorant*
E-mail sevinchezretquliyeva@gmail.com
Orcid: https://orcid.org/ 0009-0001-5029-951X

*Daxilolma tarixi: 23.09.2025*
*Düzəliş tarixi: 28.10.2025*
*Nəşrə təsdiq tarixi: 03.11.2025*

**XÜLASƏ**

Bənu Hilal dastanı ərəb xalq ədəbiyyatının ən əhəmiyyətli epik nümunələrdən biri olmaqla, tarixi və mədəni baxımdan böyük əhəmiyyət kəsb edir. Dastanın əsasında ərəb cəmiyyətində baş vermiş reaı tarixi hadisələr, xüsusilə Bənu Hilal qəbiləsinin Ərəbistan yarımadasından Şimali Afrikaya köçü dayanır. Bu köç tək siyasi və hərbi hadisələrdən ibarət olmayıb, həmçinin regionların soisal və mədəni həyatına dərin təsir göstərmişdir.

Bu məqalədə dastanın yaranma dövrü tarixi, ictimai və mədəni aspektlər təhlil edilir. Dastanın formalaşdığı dövr – VII–XII əsrlər ərəb tayfa müharibələrinin və ictimai dəyişikliklərin ən gərgin mərhələsini əhatə edir. Bu dövrdə ərəb qəbilə sisteminin sosial strukturu, nəsəb və şərəf prinsipləri, eləcə də tayfalararası münasibətlər ədəbiyyatda öz bədii əksini tapmışdır. “Bənu Hilal” dastanı həmin ənənənin məhsulu kimi ərəb xalqının tarixi yaddaşını, qəhrəmanlıq ruhunu və mənəvi dəyərlərini bədii formada ifadə edir.

Tədqiqatda dastanın yaranma prosesinə təsir edən **cahiliyyət dövrü** mədəniyyəti, çoxallahlıq inancları və qəbilə mərkəzli sosial modelin xüsusiyyətləri geniş şəkildə araşdırılır. Eposda qəbilə şərəfi, qisas prinsipi, səxavət, cəsarət və ailə bağları kimi anlayışların bədii-estetik səviyyədə ifadəsi təhlil olunur. Əlavə olaraq, İslamın gəlişi ilə ərəb cəmiyyətində baş verən mənəvi və ideoloji dəyişikliklərin dastanın məzmununa və ideya istiqamətinə təsiri göstərilir. İslamdan sonra Bənu Hilal qəbiləsinin tarix səhnəsindəki rolu yalnız döyüş və qəhrəmanlıqla deyil, həm də iman, ədalət və mədəni kimlik dəyərləri ilə əlaqələndirilir.

Məqalə göstərir ki, “Bənu Hilal” dastanı sadəcə folklor nümunəsi deyil, ərəb sivilizasiyasının tarixi-mədəni təkamülünü əks etdirən **epik sənəd** xarakteri daşıyır. Eposda qəbilə ruhu, dini və mənəvi idealların vəhdəti müşahidə olunur. Dastanın bədii təsvir vasitələri, süjet və kompozisiya strukturu ərəb xalq ədəbiyyatının ən yüksək bədii mərhələsini təmsil edir. Nəticə etibarilə, “Bənu Hilal” dastanı ərəb ədəbiyyatında qəhrəmanlıq ənənəsinin formalaşmasında və milli-mədəni kimliyin qorunmasında mühüm rol oynamışdır.

***Açar sözlər:*** *Bənu Hilal, dastan, ərəb ədəbiyyatı, Cahiliyyət dövrü, İslam mədəniyyəti, qəbilə sistemi, tarixi hadisələr, epik ənənə, bədii-estetik xüsusiyyətlər, ərəb folkloru*

# ИСТОРИЯ СОЗДАНИЯ И ИДЕЙНО-СОДЕРЖАТЕЛЬНЫЕ ОСОБЕННОСТИ ЭПОСА “БАНУ ХИЛАЛ” В АРАБСКОЙ ЛИТЕРАТУРЕ

**Севиндж ХАЗРАТГУЛИЕВА**
*Докторант Института востоковедения имени Зии Буниятова НАНА*
*E-mail: sevinchezretquliyeva@gmail.com*
*ORCID: https://orcid.org/0009-0001-5029-951X*

*Дата поступления: 23.09.2025*
*Дата исправления: 28.10.2025*
*Дата утверждения к публикации: 03.11.2025*

## АННОТАЦИЯ

Эпос "полумесяц Бану" имеет большое историческое и культурное значение, являясь одним из важнейших эпических примеров арабской народной литературы. В основе эпоса лежат реальные исторические события, произошедшие в арабском обществе, в частности миграция племени Бану Хилал с Аравийского полуострова в Северную Африку. Эта миграция состояла не только из политических и военных событий, но и оказала глубокое влияние на социальную и культурную жизнь регионов.

В этой статье анализируются исторические, социальные и культурные аспекты периода создания эпоса. Период формирования эпоса – VII–XII вв.-охватывает наиболее напряженный этап арабских племенных войн и социальных преобразований. В этот период социальная структура арабского племенного строя, принципы родословной и чести, а также межплеменные отношения нашли свое художественное отражение в литературе. Эпос "Бану Хилал" как продукт этой традиции выражает в художественной форме историческую память арабского народа, его героический дух и духовные ценности.

В исследовании широко исследуются культура эпохи невежества, многобожие верования и особенности социальной модели, ориентированной на племена, которые повлияли на процесс создания эпоса. В эпосе анализируется выражение на художественно-эстетическом уровне таких понятий, как племенная честь, принцип мести, щедрость, отвага и семейные узы. Кроме того, показано влияние духовных и идеологических изменений, произошедших в арабском обществе с приходом ислама, на содержание и идейную направленность эпоса. После ислама роль племени Бану-Хилал на исторической сцене связана не только с битвой и героизмом, но и с ценностями веры, справедливости и культурной самобытности.

В статье показано, что эпос "Бану Хилал" является не просто образцом фольклора, а эпическим документом, отражающим историко-культурную эволюцию арабской цивилизации. В эпосе прослеживается родовой дух, единство религиозных и духовных идеалов. Средства художественного изображения, сюжетно-композиционная структура эпоса представляют собой высший художественный этап арабской народной литературы. Следовательно, эпос "Бану Хилал" сыграл важную роль в формировании героической традиции в арабской литературе и сохранении национально-культурного самосознания.

***Ключевые слова:*** *полумесяц Бану, эпос, арабская литература, эпоха невежества, исламская культура, племенная система, исторические события, эпическая традиция, художественно-эстетические особенности, арабский фольклор*

# THE HISTORY OF THE CREATION OF THE EPIC BANU HILAL IN ARABIC LITERATURE AND ITS CONCEPTUAL AND CONTENT FEATURES

**Sevinj HAZRATGULIYEVA**
*PhD student,*
*Institute of Oriental Studies named after Z.M. Bunyadov, ANAS*
*E-mail: sevinchezretquliyeva@gmail.com*
*ORCID: https://orcid.org/0009-0001-5029-951X*

*Date of submission: 23.09.2025*
*Date of revision: 28.10.2025*
*Date of acceptance for publication: 03.11.2025*

## ABSTRACT

The *Banu Hilal* epic is of great historical and cultural importance, being one of the most significant examples of Arabic folk literature. The epic is based on real historical events that took place in Arab society, in particular, the migration of the Banu Hilal tribe from the Arabian Peninsula to North Africa. This migration was not only a political and military event, but also had a profound impact on the social and cultural life of the regions.

This article analyzes the historical, social, and cultural aspects of the era in which the epic was created. The period of its formation—7th–12th centuries—covers the most intense stage of Arab tribal wars and social transformations. During this period, the social structure of the Arab tribal system, the principles of honor, and inter-tribal relations were reflected in literature in fictionalized form. The epic *Banu Hilal*, as a product of this tradition, expresses the historical memory, heroic spirit, and moral values of the Arab people in an artistic form.

The study extensively examines the culture of the pre-Islamic period, the beliefs in polytheism, and the features of the tribal-centered social model that influenced the creation of the epic. The epic portrays, at the artistic and aesthetic level, concepts such as tribal honor, the principle of revenge, generosity, courage, and family ties. In addition, the influence of the spiritual and ideological changes that took place in Arab society with the advent of Islam is evident in the content and direction of the epic. After the rise of Islam, the role of the Banu Hilal tribe in history became associated not only with combat and heroism, but also with the values of faith, justice, and cultural identity.

The article shows that the epic *Banu Hilal* is not merely an example of folklore, but an epic document reflecting the historical and cultural evolution of Arab civilization. In the epic, the unity of the tribal spirit, religious, and spiritual ideals is evident. Its artistic description, plot, and compositional structure represent the highest artistic stage of Arab folk literature. Consequently, the epic *Banu Hilal* played an important role in the formation of the heroic tradition in Arabic literature and in the preservation of national and cultural identity.

***Keywords:*** *Banu Hilal, epic, Arabic literature, period of ignorance, Islamic culture, tribal system, historical events, epic tradition, artistic and aesthetic features, Arabic folklore*

**Giriş**

Ərəb ədəbiyyatının zəngin janr sistemində dastanlar yalnız bədii yaradıcılığın məhsulu deyil, həm də xalqın yaddaşında yaşayan tarixi, mənəvi dəyərləri və düşüncə tərzini özündə daşıyan mədəni xəzinədir. Bu baxımdan "Bənu Hilal" dastanı ərəb epik ənənəsinin ən mühüm nümunələrindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Əsər tək qəhrəmanlıq ruhunun poetik ifadəsi deyil, həmçinin ərəb qəbilə həyatının sosial və ideoloji inikasını özündə birləşdirir.

**Mövzunun aktuallığı** ondan ibarətdir ki "Bənu Hilal" dastanı ədəbiyyat, tarix, mədəniyyət elmləri üçün çoxsahəli tədqiqat obyektidir. Ərəb dünyasının ictimai-siyasi həyatında baş verən dəyişiklikər, qəbilə münasibətləri, dini və mənəvi dəyərlərin formalaşması bu eposun bədii sturukturu vasitəsi ilə öz əksini tapır. Müasir dövrdə dastan yalnız xalq ədəbiyyatın bir parçası deyil, həm də insanlığın keçmişini, düşüncəsini və dəyərlərini əks etdirən nümunə kimi dəyərləndirilir.

Tədqiqatın **elmi yeniliyi** ondan ibarətdir ki burada "Bənu Hilal" dastanı ərəb ədəbiyyatının ümumi inkişaf kontekstində araşdırılır, onun yaranma mərhələri tarixi hadisələrlə əlaqələndirilir və eposun qəhrəmanlıq, məişət motivləri sistematik şəkildə təhlil olunur. əsərin ərəb kimliyinin formalaşmasında və mədəni yaddaşın qorunmasında oynadığı rolu elmi qiymətləndirilməsi bu işin əsas məqsədini təşkil edir.

**Bənu Hilal qəbiləsinin mənşəyi və ərəb tayfa sistemində yeri**

Ərəb ədəbiyyatının zəngin ənənələri içərisində dastan janrı, xüsusilə də qəhrəmanlıq ruhu ilə yoğrulmuş əsərlər mühüm yer tutur. Bu dastanlar yalnız bədii yaradıcılığın məhsulu deyil, eyni zamanda ictimai-siyasi və tarixi hadisələrin ədəbi inikası kimi dəyərləndirilir. Bu baxımdan "Bənu Hilal" dastanı (سيرة بني هلال) ərəb xalqların yaddaşında dərin iz qoymuş, ədəbiyyat və tarix elmləri üçün qiymətli mənbələrdən biri hesab olunur. Eposda yalnız qəhrəmanlıq motivləri deyil, həm də ərəb qəbilə sisteminin sosial quruluşu, tayfa münasibətləri, əxlaq normaları və dövrün mədəni mühiti öz əksini tapmışdır. Dastanın yaranma tarixi VII – XII əsrlər arasında ərəb tayfa müharibələrinin, xüsusilə də Hilalilər qəbiləsinin Ərəbistan yarımadasından Şimali Afrikaya köçü ilə bağlı ictimai-siyasi hadisələr fonunda formalaşmışdır. Eposun yaranma prosesi birbaşa Bəni Hilal qəbiləsinin tarixi taleyi ilə əlaqədardır.

Ərəb xalqın etnik və tarixi formalaşma prosesi çoxəsrlik mədəni inkişafın və tayfa əlaqələrin məhsuludur. Ərəbistan yarımadası qədim zamanlardan etibarən müxtəlif tayfaların, köçəri və yarımköçəri qəbilələrin məskəni olmuşdur. Bənu Hilal qəbiləsinin tarixi mənşəyi ərəb yarımadasının qədim köçəri tayfalar sisteminə dayanır. Qəbilə birliyi ərəb xalqların siyasi, sosial, və mədəni həyatına mühüm rol oynamış, sonradan isə İslam mədəniyyətinin inkişafına da təsir göstərmişdir. İslamdan əvvəlki dövrdə ərəb cəmiyyəti "nəsəb və qəbilə şərəfi" prinsiplərinə əsaslanırdı. Qan bağı, mənşə ortalığı və qarşılıqlı müdafiə borcu qəbilə üzvlərini birləşdirən amil idi. İbn əl – Kəlbi bu quruluşu belə izah edir: "*Hər bir qəbilə onları birləşdirən bir ata soyuna bağlıdır, onların xüsusi nəsəbi və özlərinə məxsus vəfa əhdi vardır.*" [İbn əl-Kəlbi, 1981,s.14].

Ərəb genealoji ənəsinə görə, ərəblər üç əsas mənşə qrupuna bölünürlər:

Əl-Arab əl–Baida العرب البائدة (yox olmuş ərəblər) – bu tayfalar qədimdə

yaşamış və zamanla yoxa çıxmış xalqlar idi. Qurani Kərimdə də adları çəkilən Ad və Samud tayfaları bu qrupa daxildir. Onların izləri daha çox Əhqaf və Hicr bölgələrində arxeoloji olaraq müşahidə olunmuşdur. İslam tarixçliləri bu tayfanı belə təsvir edir: *"Onlar xalqlar arasında ən qüvvətliləri idilər, lakin zülmlər səbəbi ilə Allah onları məhv etdi."* [Ət-Tabari, 1967, c.1, s.102].

Əl-Arab əl- Arabia العرب العربية (əsil ərəblər) - bu qrupun nəsli Qahtan ibn Yarubdan gəlir və əsasən Yəmən və Cənubi Ərəbistan bölgələrində məskunlaşmışdır. Adı çəkilən qrupa Himyar, Kində, Əzd, Kəhlan və Həmədan kimi məşhur tayfalar daxildir. Bu tayfalar arasında Səba və Himyar krallıqları mədəni inkişafın zirvəsinə çatmış, yüksək suvarma sistemi və şəhər mədəniyyəti ilə fərqlənmişlər. Şevqi Dayf qeyd edir: *"Cənubi ərəblərin mədəni səviyyəsi bədəvi tayfalarınkından qat-qat yüksək idi. Onlar ticarət, memarlıq və dövlət idarəçiliyində qabaqcıl idilər."* [Zeydan G., 1960, s.23].

Əl-Arab əl-Mustariba العرب المسعربة (sonradan ərəb olanlar) - qrupun mənşəyi İsmayıl ibn İbrahim soyuna bağlanır. Onlar əvvəlcə Hicaz bölgəsində yaşamış, sonra ərəb dilini və mədəniyyətini mənimsəmişlər. Bu qrupa Mudar, Rəbiə, Kinanə, Əmir ibn Səsəə, Təmin, Qureyş və Banu Hilal kimi tayfalar daxildir. Bu barədə İbn Hazəm yazır: *"Bunlar Hicazda məskunlaşmaqla ərəb mədəniyyətini mənimsədilər və sonra bütün Ərəbistan boyunca yayıldılar."* [İnb Hazm, 1983, s.11].

Qəbilələrin həyat tərzinə bir başa Ərəb yarımadasının təbii şəraiti – səhralar və su mənbələrin məhdudluğu təsir edirdi. Cənubi ərəblər (Qahtanilər) daimi yaşayış məskənlərində oturaq həyat sürür, əkinçilik və ticarətlə məşğul olurdular. Şimali və Mərkəzi ərəblər (Muradilər) köçəri həyat tərzi aparır, heyvandarlıq və kərvan ticarəti ilə dolanırdılar. Bu sosial fərqi Cahiz belə izah edir: "*Yəmən əhalisi şəhərlilərin, Nəcd əhalisi isə səhraların ruhunu daşıyır, onların təbiət və mədəniyyətləri bir-birindən fərqlidir."* [Əl-Cahiz, 1975, s.88]. İslamdan əvvəlki dövrdə ərəb qəbilələri əsasən Hicaz, Nəcd və Yəmən ərazisində məskunlaşmışdılar. Bu bölgələrdə yaşayan tayfalar dil, mədəniyyət və dini baxımdan ortaq xüsuiyyətlər daşısalar da, sosial strukturları və həyat tərzləri fərqli idi. Hilalilər bu bu qəbilə sistemin bir hissəsi kimi Nəcd bölgəsində formalaşmış, daha sonralar Yəmən və Şimal Afrika istiqamətində köç etmişlər. *"Ərəb qəbilələrinin miqrasiyası həm iqtisadi məhdudiyyətlərin, həm siyasi parçalanmanın nəticəsi idi."* [Hitti P.K., 1970, s.23]. Hittinin qeyd etdiyi kimi onların tarixi köçləri həm sosial-iqtisadi səbəblərlə, həm də siyasi ziddiyyətlərlə bağlı olmuşdur. Bu baxımdan, Bənu Hilal dastanının tarixi yalnız ədəbi hadisə deyil, həm də konkret bir tayfanın köç tarixini, qəbilə ruhunu və ərəblərin erkən ictimai strukturunu özündə əks etdirir.

**Cahiliyyət dövrün sosial-mənəvi xüsusiyyətləri:**
**Bənu Hilal qəbiləsinin tarixi kontekstə yeri**

Bənu Hilal dastanın tarixi iki əsas dövrə bölünür: İslamdan əvvəlki dövr və İslamdan sonraki dövr. İslamdan əvvəlki dövr Cahiliyyət dövrü جاهلية adlanılır. "Cahiliyyət" sözü ərəbcə جهل (cəhl) yəni "bilməmək, elmsizlik, nadanlıq" mənasinda yaranmışdır. Lakin bu anlayış savadsızlıq deyil, həm də mənəvi və əxlaqi pozğunluğu, sosial ədalətsizliyi və dini azğınlığı ifadə edir. İslam alimləri və tarixçiləri "cahiliyyət" terminini İslamın gəlişi ilə yaranan dəyərlər sisteminə qarşı olan keçmiş cəmiyyətin xüsusiyyətlərini təsvir etmək üçün işlətmişlər. İnb Haldun bu dövrü *"əxlaqi və ictimai nizamın itirildiyi mərhələ"* kimi dəyərləndirir.

Ərəb cəmiyyəti bu dövrdə qəbilə əsaslı sosial stuktura malik idi. Qəbilə hər bir fərdin kimliyini, hüququnu və təhlükəsizliyini təmin edirdi. Cəmiyyət "əyanlar", "döyüşçülər", "kölələr" kimi sosail təbəqələrə bölünmüşdü. Əyanlar qəbilə rəhbərliyini təmsil edir, müharibə və sülh qərarlarını verirdilər. Qəbilənin tam hüquqlu üzvü tamamı ilə azad olub. Üzv üçün ən qorxulusu qəbilədən sürgün edilməsi idi. Belə sürgünləri "xalı" جالي adlandırıdılar. Xalını köləliyə sata bilərdilər. Mükəmməl ərəb nəcib, qorxusuz, qonaqpərvər, böyüklərə hörmət edən olmalıdır. Ərəb qəbilə sistemində qohumluq, qarşılıqlı müdafiə və qisas prinsipləri mühüm yer tuturdu. Qan qısası ("əs-sər") sosial nizamın qorunması vasitəsi idi. Əgər bir qəbilə üzvü öldürülərdisə, bu hadisə bütün tayfanın məsuliyyəti kimi qəbul olunurdu. Belə bir sosial model Benu Hilal dastanının strukturunda da açıq şəkildə öz əksini tapır: qəhrəmanlar qəbilə şərəfini müdafiə edir, ailə və nəsil dəyərləri uğrunda mübarizə aparırdılar. *"Bəduin ədəbiyyatının bütün janrlarında olduğu kimi, Bənu Hilal dastanında da qəbilə birliyi və qisas prinsipi bədii təfəkkürün mərkəzindədir."* [At-Talib M.H.,2009, s.61].

İslamdan əvvəlki dövrdə Bənu Hilal qəbiləsi Nəcd və Hicaz ərazilərində yaşayan köçəri ərəb tayfalarından biri idi. Onların əsas məşğuliyyəti heyvandarlıq və yol ticarəti idi. Qəbilə həm də şeir sənətinə və qəhrəmanlıq ənənələrinə böyük dəyər verirdi. Cahiliyyət dövrü ərəblərin sosial həyatında qəbilə həm müdafiə, həm siyasi, həm də əxlaqi dəyərlərin mərkəzi sayılırdı. Bənu Hilal da bu sistemdə öz şərəf və azadlıq idealları ilə tanınırdı. Ərəb tarixçisi Əl-Jahiz yazırdı ki, *"Hilalilər səxavət və döyüş ruhu ilə tanınırdılar, onların şairləri qəbilə şərəfini qorumağı dini vəzifə sayırdı."* [Ə-Cahiz, 1975, c.2, s.87]. Bu fikirdən görünür ki, Bənu Hilal qəbiləsi təkcə fiziki gücü deyil, həm də mənəvi dəyərləri ilə seçilirdi. Qəbilə o dövrdə tez-tez qonşu tayfalarla münaqişələrə girir, bəzən Bənu

Amir, Bənu Abs və Bənu Tamim kimi güclü tayfalarla müttəfiq olurdu. Bu qarşıdurmalar ərəb qəbilə sisteminin dinamik təbiətini əks etdirirdi və sonralar "Bənu Hilal" dastanında epik mübarizə motivləri şəklində bədii ifadəsinnni tapmışdır.

Cahiliyyət dövrü Ərəbistan yarımadasında dini baxımdan çoxallahlıq hökm sürürdü. Cahiliyyət ərəblərin ayin və ibadətləri arasında büdpərəstlik, ulduzlara və təbiət hadisələrinə sitayiş əsas yeri tuturdu. Taha Hüseyn bu barədə qeyd edir: *"Cahiliyyət dövründə ərəblərin dini təfəkkürü sadə və simvolik idi; onların Tanrı anlayışı təbiət hadisələri ilə sıx bağlı idi."* [Dayfi Ş., 1960, s.37]. Ərəb tayfalarının çoxu müxtəlif bütlərə ibadət edir, hər qəbilənin öz totemi və müqəddəs əşyası olurdu. Kəbədə olan üç yüz altmış içərisində Hubal baş büt sayılırdı, ən məşhur bütlər isə Lat, Uzza, Manat idi. Hubal – adam şəklində olan bir heykəl idi və qırmızı əqiqdən düzəlmişdir və siyadan Kəbəyə gətirilmişdir. Bir çox ərəblər Huballa "məslətləşməyi" çox sevirdi. Onun qarşısında yeddi oxdan birini çəkərək, evlənməzdən əvvəl, səyahətə çıxmamışdan əvvəl fala baxırdılar. Ərəblər heykəl formasında olan bütlərə "sanəm" (əsnam), daş bütləri isə nasab (ənsab) adlandırıldılar.

Sanəm - سنم (اصنام) qızıl və gümüşdən insan və ya heyvan sürətində düzələn bütlər idi. Bütlər yalnız dini rəmz deyil, həm də qəbilə kimliyinin, mədəni birliyin simvolu idi. Hər qəbilənin öz sanəmi olurdu. And içərkən qurban kəsərkən və mühüm qərarlar qəbul edilərkən həmin büt qarşısında mərasim keçirilirdi. Əsas ayinlər bütlərə qurbanlar kəsməkdən, onların ətrafına dolanmaqdan, onlara hədiyyələr etməkdən ibarət idi. Bütlərə, xüsusi ilə qız uşaqlarına qurban deyilməsi adəti var idi. Bu səbdən də Qurani – Kərimdə *"övladlarınızı aclıq qorxusundan öldürməyin"* ayəsi nazil olmuşdur ["İsra" surəsi, 31-ci ayə].

Nasab - نصب (انصاب) büspərəst mərasimlərin mərkəzində dayanırdı və ibadətin, qurbanın, həmçinin andın obyektinə çevrilmişdir. Bədəvi ərəblər səyahətə gedərkən özləri ilə dörd daş götürərdilər: birinə sitayiş edib, üçü ilə isə atəş yandırırdılar.

Erkən İslam alimləri iddia edirdi ki, hər qəbilə öz sanəminə "əlif", "ilah" kimi müraciət edirdi və bu da sonradan "Allah" sözünün etimologiyası ilə bağlı müzakirələrə səbəb olmuşdur.

Cahiliyyət dövründə ərəblər arasında büdpərəstikdən əlavə moneteist düşüncə tərzi də formalaşmışdır. Ərəbistan yarımadasının müəyyən ərazilərində, bəzi qəbilələr arasında xristianlıq dini yaranmışdır. *"Şam (Suriya) ərəblərin xristianlıqla tanış olduğu ilk ölkə idi. Çünki bu ərazilər xristianlığın beşiyi olmuşdur."* [Qasımova A.Ş., 2007, s.33].

Cahiliyyət dövrü ərəb cəmiyyətində qadınların hüquqlarının ciddi şəkildə məhdudlaşdırıldığı bir mərhələni təmsil edir . Bu dövrdə qadinların ən əsas hüquqları belə tanınmır, onların varlığı cəmiyyət tərəfindən dəyərsizləşdirilirdi. Qız uşaqlarının doğulması ailə üçün rüsvayçılıq sayılırdı. Bəzi hallarda, qız uşaqlarının doğulması ailənin nüfuzunu zədələyir və bu səbəbdən valideynlər qız uşaqlarını diri-diri torpaöa basdırmaq kimi qəddar bir ənənəni davam etdirirlər. Bu praktika Qurani-Kərimdə də tənqid edilmişdir: *"Və nəhayət, diri-diri basdırılmış qız uşağı soruşulacaq."* [Qurani-Kərim, "Təkvir" surəsi, 8-ci ayə]. Ərəbistan yarımadasında tarix və sosial inkişafın müəyyən mərhələlərində qadınların cəmiyyətdəki mövqeyi olduqca məhdud xarakter daşıyırdı. Qadınların kişilərin mülkiyyətinə aid obyekt kimi dəyərləndirilməsi onların sosial və hüquqi statusunun zəifləməsinə gətirib çıxarırdı. Əksər qəbilə icmalarında qadının həyat yoldaşına qarşı çıxması sosial norma baxımından yolverilməz sayılırdı. Belə ictimai münasibətlər sistemi qadınların kişi ilə bərabər hüquqlara malik olmadığı ideyasını möhkəmləndirirdi. Hətta bəzi hallarda qadının həyat yoldaşı ilə eyni masada nahar etməsi və ya onunla eyni yaşayış məkanında qalması sosial qadağa kimi qiymətləndirilirdi.

İslam dinin təşəkkülündən sonra qadınların cəmiyyətdəki mövqeyində mühüm dəyişiklər baş vermişdir. İslam qadının insan kimi bütün mənəvi və hüquqi aspektlərdə kişi ilə bərabər hüquqlara malik olduğunu vurğulamışdır. İslam təliminə görə, qadının faydalı ictimai və elmi fəaliyyətlərində iştirakına mane olmaq ədalətsizlik və zülm kimi qiymətləndirilir. Bu baxımdan, qadın öz fitri qabiliyyətlərini reallaşdırmaqla cəmiyyətin inkişafında mühüm rol oynaya bilər.

Məhəmməd Peyğəmbər (s.ə.s.) qadınların sosial statusunun yüksəldilməsinə xüsusi diqqət yetirmiş və onların bir çox hüquqlara malik olduğunu bildirmişdir. Məlum hədislərdə qeyd olunur ki,

qız övladının təhsil və tərbiyəsi üçün məsuliyyət daşıyan ata Allah tərəfindən savabla mükafatlandırılır. Həmçinin İslam mənbələrinə görə, Peyğəmbər qızı Fatiməni “Allahın əmanəti” adlandırmış və onu qorumağın, hörmətlə yanaşmağın vacibliyini vurğulamışdır. Rəvayətlərin birində Məhəmməd Peyğəmbərin (s.ə.s.) İmam Əliyə (ə.) belə buyurduğu qeyd olunur: *“Ey Əbül-Həsən, sənə etibar etdiyim qızım Allahın əmanətidir, ona görə də ona hörmət və qayğı göstərməlisən.”* [İbn Haşəm, 1976, c.2, s.73].

İslam dini insanın mənəvi və bioloji xüsusiyyətlərində qadın və kişi arasında əsaslı fərq qoymur. Bu prinsip Qurani-Kərimin bir çox ayələrində öz təsdiqini tapır. Allah kişi və qadını eyni fitrət əsasında yaratmışdır və təqva müəyyən bir cinslə məhdudlaşmır. Hər kəs Allahdan qorxmaq və öz əməlindən məsul olmaq məcburiyyətindədir . “Əl-Hucurat” surəsi 13-cü ayəsində Allah buyurub:

يَا أَيُّهاا لنَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَىٰ وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُواۚ إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

*“Ey insanlar, Biz sizi bir kişi və bir qadından yaratdıq. Bir-birinizlə tanış olasız deyə sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz, Allah yanında sizin ən dəyərliniz ən təqvalı olanızdır. Şübhəszi ki, Allah hərşeyi biləndir, hər şeydən xəbərdadrdır.”* [Qurani-kerimin Azərbaycan dilinə tərcüməsi; Bünyadov Z.M., və Məmmədəliyev V. M., 2015, s.478; 7].

İslam qadının yalnız əşya kimi qəbul edilməsinin qarşısını alır və onun cəmiyyətdəki rolunu yüksəldir. Qadınlara şəriət tərəfindən icazə verilən işlə məşğul olmaq və firavan bir həyat qurmağa icazə verir. Allah Təala Qurani-Kərimdə xatırladır ki, bütün qadınlar və kişilər öz hərəkətlərinə görə məsuliyyət daşıyırlar və heç kim başqalarına cavabdeh deyil [Qurani-kerimin Azərbaycan dilinə tərcüməsi; Bünyadov Z.M., və Məmmədəliyev V. M., 2015, s.291; 7]. Quranda qadın məsələsi ciddi şəkildə əks olunmuşdur. “Qadın” kəlməsi otuz beş surədə və yüz iki ayədə qeyd olunur, bir surəyə isə “Nisa” (“Qadınlar”) adı verilib ki, bu da qadının İslamda yüksək statusunu göstərir. Məhəmməd Peyğəmbər hədislərin birində *“Kimin üç qızı olsa, onları imkanı daxilində qıdalandırar, geyindirər, rəhm edərsə, Cənnət ona vacib olar”* qeyd edərək, qadınlara münasibətdə nümunə göstərmişdir.

Şəriət həm kişilər, həm də qadınlar üçün qanun və qaydalara riayət etməyi tələb edir. Bu qaydalar davranış, geyim və ictimai münasibətləri əhatə edir. Müsəlman bir qadına öz ərindən başqa, başqasının yanında öz gözəlliyi ilə öyünməsi qadağandır.

Quranı-Kərim kişiyə həyat yoldaşına qarşı yumşaq, mərhəmətli və qayğıkeş davranmağı əmr edir. Kişi ailəsinin rifahına cavabdehdir və həyat yoldaşına sevgi və hörmətlə yanaşmalıdır. Qadın isə nəsli davam etdirmək, övlad böyütmək, evin daxili işlərini qaydaya salmaq kimi məsuliyyətləri öz üzərinə götürür. Qadın hər şeydən əvvəl anadır. Peyğəmbərimizin (s.ə.s.) bir hədisində buyurur: *“Cənnət anaların ayaqları altindadır.”* Mənim fikirimcə, bu söz İslamda qadına verilən dəyərin ən gözəl ifadəsidir. Beləliklə, görürük ki, İslam “zəif cins” sayılan qadını ən yüksək məqama qaldıran ilk dindir. Ondan əvvəlki dinlər və cəmiyyətlər qadına çox zaman ədalətsiz yanaşırdılar, lakin İslam qadını hörmət və şəfqət mövqeyinə gətirdi.

Cahiliyyət dövrü ilə İslamdan sonraki dövrü müqayisəli şəkildə təhlil etdikdə və bu sahəni ətraflı araşdırdıqdan sonra belə nəticəyə gəlmək olar ki, İslam dini Ərəbistan yarımadasında tək qadınların deyil, ümumi cəmiyyətin vəziyyətinə əsasən müsbət təsir göstərmişdir.

**İslamdan sonraki dövrdə Bənu Hilal qəbiləsinin tarixi rolu və Şimali Afrikaya köç prosesi**

İslamın yayılmasından sonra Bənu Hilal qəbiləsinin tarixi rolu tədricən dəyişməyə başladı. İslam dövründə qəbilə artıq dini və siyasi birliyin tərkib hissəsinə çevrilmişdi. İlk İslam dövrlərində Bənu Hilal tayfaların bir hissəsi Mədinə və Məkkə yaxınlığında, digərləri isə İraq və Şam torpaqlarında məskunlaşmışdı. Bu dövrdə qəbilə İslam orduların yürüşlərində də iştirak etmiş, xüsusilə də Abbasilər dövründə hərbi sədaqəti ilə tanınmışdı. Lakin IX əsrin sonlarına doğru ərəb dünyasında mərkəzi hakimiyyətin zəifləməsi və qəbilələrarası rəqabətin güclənməsi nəticəsində Bənu Hilal qəbiləsi yenidən köçəri həyat tərzinə dönmüş, Şimali Afrikaya doğru hərəkət etməyə başlamışdı. *“Hilali tayfaların köçü İfrikiyanın siyasi tarazlığını poizdu, lakin eyni zamanda ərəb*

*ruhunu və dilini Qərb torpaqlarına daşıdı."* [İbn Xaldun, 2000, c.6, s.58] İnb Xaldunun qeyd etdiyi kimi, bu köç hadisələri İslam tarixi üçün həm sosial, həm də mədəni baxımdan mühüm dönüş nöqtəsi olmuşdur.

Çox güman ki, Bənu Hilal qəbiləsi bu dövrdə artıq yalnız köçəri tayfa deyil, ərəb kimliyin simvolu kimi qəbul edilirdi. Onların həyat tərzi, döyüşçü ruhu və mədəni dəyərləri xalq yaddaşında epik qəhrəmanlıq hekayələrinə çevrildi. Bu hadisələr "Bənu Hilal" dastanının süjetini formalaşdırdı və qəbiləni bədii ədəbiyyatın qəhrəmanına çevirdi.

Dastanda qəbilənin İslamdan sonraki dövrdə oynadığı rol bəzən dini çalarlarla da müşayiət olunur. Qəhrəmanlar İslam dəyərləri uğrunda mübarizə aparır, qəbilə isə ədalət və iman simvolu kimi təsvir edilir. Bu öz növbəsində, xalq təfəkküründə qəbilənin sadəcə tarixi varlqı deyil , həm də mənəvi ideal səviyyəsinə yüksəldiyini göstərir. Beləliklə, Bənu Hilal qəbiləsinin İslamdan əvvəlki dövrdə döyüş və qəhrəmanlıq, İslamdan sonra dövrdə isə iman və mədəni kimlik funsksiyası bir-birini tamamlayır. Bu tarixi sintez "Bənu Hilal" dastanın ideya əsasını təşkil etmiş və əsəri sadəcə folklor nümunəsi deyil, həm də fikrimcə, ərəb sivilizasiyasını tarixi və mənəvi baxımdan yüksəltmişdi.

XI əsr ərəb tarixinin kritik dönəmlərindən biri idi. Abbasilər xilafətinin mərkəzi hakimiyyəti zəifləyərək regional dövlətlərin formalaşmasına yol açmış, bu isə qəbilə ittifaqlarının müstəqil hərəkətlərinə şərait yaratmışdır. Hilali tayfalarının XI əsrdə Ərəbistan yarımadasından Şimali Afrikaya miqrasiyası ilə bağlı real tarixi hadisələrə əsaslanır. Bu hadisələr həm siyasi, həm iqtisadi, həm də mədəni baxımdan Orta əsr ərəb dünyasında böyük dəyişikliklərə səbəb olmuşdur. Bu dövrdə Abbasilər xilafətinin mərkəzi hakimiyyəti zəifləyərək regional dövlətlərin formalaşmasına yol açmış. Bu isə, öz növbəsində qəbilə ittifaqlarının müstəqil hərəkətlərinə şərait yaratmışdı. Hilali tayfalalarının Hicaz və Nəcd bölgələrindən Şimali Afrikaya köçü də məhz bu siyasi dağılma dövründə baş vermişdir. Qəbilələr arasında rəqabət və torpaq uğrunda mübarizə artıqca, Hilalilər tədricən Nəcd və daha sonra Misirə doğru hərəkət ediblər. Ərəb mənbələrində qeyd olunur ki, Hilali tayfaların əsas qüvvəsi Bənu Hilal ibn Amir ibn Sasa nəsildən idi. [Ət-Tabari, 1967, c.4, s.113]

XI əsrin əvvəllərində Fatimilər xilafəti ilə Hilali tayfaları arasında mürəkkəb münasibətlər yaranmışdı. Fatimilərin Misirdə möhkənlənməsi və Qərbi afrikaya doğru genişlənməsi yeni siyasi balans yaratdı. Həmin dövrdə İfrikiya (indiki Tunis və Əlcazair) bölgəsində Fatimi hakimiyyətinə tabe olan Zirilər sülaləsi mövcud idi. Zirilər 1048-ci ildə Fatimilərlə ittifaqı pozaraq, Bağdad Abbasiləri ilə yaxınlaşdılar. Bunun nəticəsində, Fatimilər Ziriləri cəzalandırmaq üçün Hilali və Süleym tayfalarını Qərbi Afrikaya yönəltdilər. Bu hadisə həm tarix, həm də ədəbiyyat üçün dönüş nöqtəsi oldu. Hilali tayfaların Şimali Afrikaya miqrasiyası dövrdə ərəb folklorunda qəhrəmanlıq eposların yaranmasına səbəb oldu.

Hilali miqrasiyasının arxasında həmçinin sosial-iqtisadi səbəblər dayanırdı. ərəbistanın bir çox bölgələrində iqlim dəyişikliyi və otlaq sahələrinin azalması bədəvi qəbilələrin iqtisadi strukturuna ciddi zərbə vurmuşdur. Ərəb tarixçisi İbn Xaldun qeyd edirki: *"Hilalilərin köçü təkcə siyasi deyil, həm də həyat tərzin dəyişməsi idi – onlar yeni torpaqlarda keçmişin çətinliklərindən qurtulmaq istəyirdilər."* [İbn Xaldun, 2000, c.1,s.291]

Digər tərəfdən XI əsrin dini vəziyyəti də bu miqrasiyanı izah edən mühüm amillərdəndir. Fatimi xilafətinin şiə məzhəbi ilə Zirilər və digər sünni qüvvələr arasında yaranan ziddiyyətlər qəbilələrin də parçalanmasına səbəb olmuşdu. Hilali tayfaların bir hissəsi Fatimilərə sədaqətli qalaraq onların ordusunda xidmət etmişdi. Digər hissəsi isə Fatimilərə tabe olmayaraq, müstəqil hərəkət etmişdir. Bu dini – siyasi gərginlik dastanda da öz əksini tapır. Qəhrəmanların düşmənləri təkcə yad ellər deyil, həm də "haqdan dönən" tayfalardır.

Hilali yürüşü haqqında məlumatlar bir sıra orta əsr tarixçilərinin əsərlərində öz əksini tapmışdır. Ən etibarlı mənbələrdən biri İbn Xaldunun "Kitab al-İbar" əsəridir. O, Hilalilərin Şimali Afrikaya köçünü geniş şəkildə təsvir edərək yazıb: *"Hilalilərin gəlişi Magribin tarixi taleyini dəyişdi. Onların ardınca bədəvi mədəniyyəti və ərəb dili Afrikaya yayıldı."* [İbn Xaldun, 2000, c.1, s.294]

Digər mühüm mənbə Misir tarixçisi əl-Məqrizinin yazılarıdır. Tarixçi bildiri ki, Hilali tayfalarını Zirilərin üzərinə yönəltməklə, siyasi rəqibini zəiflətmək istəmişdi [Əl-Mufriqizi, 1908, c.2,

s.177]. Bu hadisə nəticəsində 1050 – 1052 – ci illərdə Hilali yürüşü bütün İfrikiyanı əhatə etmiş və Zirilər dövlətin dağılma həddinə gətirmişdir. Qərb tarixşünaslğında bu hadisə "Hilali invaziyası" kimi tanınır.

Bənu Hilal dastanı hər nə qədər bədii elementlərlə zəngin olsa da, tarixi gerçəkliklərə əsaslanır. O, tayfa həyatının dinamikasını, köç yollarını, qəbilə münasibətlərini əks etdirən canlı bir sənəddir. Dastanda təsvir olunan hadisələr vasitəsi ilə biz o dövrün siyasi münasibətlərini, mədəni dəyişikliklərini və xalq psixologiyasını dərindən anlaya bilirik. Beləliklə, dastan xalqın bir qəhrəmanlıq salnaməsi deyil, həmçinin ərəb dünyasının orta əsrlər tarixinin bədii aynasıdır. Eposda hər bir hadisə tarixi xatirə və ictimai ibrət mənbəyi kimi göstərilir. Əbu Zeyd obrazı təkcə qəhrəman deyil, cəsarət, sədaqət, və mənəvi ədalət rəmzi olaraq ümumərəb idealının daşıyıcısıdır. Dastanda qadın obrazlarının fəallığı da diqqətə layiqdir. *"Ərəb epik ənənəsində qadın təkcə passiv obyekti deyil, qəhrəmanın taleyini dəyişdirən mənəvi qüvvədir."* [Allen R.,1998 s.89]. Bu fikirdən də görünür ki, dastanda qadın artıq sosial hadisələrin iştirakçısına çevirilir.

**Nəticə**

Bənu Hilal dastanın yaranma dövrü ərəb və Şimali Arika tarixində siyasi parçalanma və mədəni tranformasiya mərhələsidir. Hilali tayfaların Hicazdan Mağribə köçü tarixi hadisə və mədəni mif səviyyəsində ərəb kimliyinin yenidən qurulmasına təsir etmişdir. Dastanın formalaşması bu köçün sosial-iqtisadi, dini və mənəvi səbəbləri ilə sıx bağlıdır. Hilalilərin həyat tərzindəki dəyişiklik, bədəvi etik sistemenin yeni mühitdə təzahürü və qəhrəmanlıq idealının ədəbi simvola çevrilməsi bu eposun əsas məzmun qatını təşkil edir. posun yaranma və formalaşma prosesi göstərir ki, o, sadəcə bir qəbilənin həyatını və köç tarixini təsvir etmir; əslində, ərəb toplumunun keçid dövrlərində – Cahiliyyətdən İslam mərhələsinə qədər baş verən dərin mənəvi və sosial dəyişikliklərin bədii ifadəsinə çevrilmişdir.

Dastanda qəbiləçilik prinsipləri, şərəf, səxavət, cəsarət kimi ənənəvi dəyərlər İslamla birlikdə yeni mənəvi məzmun qazanır. Bu sintez həm ərəblərin tarixi düşüncə tərzini, həm də onların mədəni yenilənmə prosesini əks etdirir. "Bənu Hilal" qəbiləsinin obrazında biz təkcə savaş və qəhrəmanlıq rəmzlərini deyil, həm də ədalət, iman və mədəni bütövlük ideallarını görürük.

Dastanın diqqətəlayiq cəhətlərindən biri qadın obrazlarının fəal və mənəvi gücə malik şəkildə təqdim edilməsidir. Bu, İslamdan əvvəlki dövrdə qadınlara qarşı mövcud olan sosial məhdudiyyətlərin tədricən aradan qalxması və qadının cəmiyyətdəki rolunun dəyişməsini əks etdirir. Beləliklə, "Bənu Hilal" dastanı yalnız qəhrəmanlıq və müharibə mövzularını deyil, həm də ailə, sevgi, sədaqət və mənəvi dəyərlər kimi ümumbəşəri anlayışları özündə birləşdirir.

Ümumilikdə, qeyd etmək istəyirəm ki, "Bənu Hilal" dastanı ərəb ədəbiyyatında epik təfəkkürün zirvəsini, xalq yaddaşının dərin qatlarını və ərəblərin öz tarixi kimliyini qoruma istəyini nümayiş etdirir. O, keçmişin hadisələrini sadəcə xatırlatmır, həm də bu hadisələrin arxasındakı mədəni və mənəvi mahiyyəti açır. Bu baxımdan dastan, ərəb sivilizasiyasının tarixi-mədəni inkişafını, qəhrəmanlıq ruhunu və mənəvi özünüdərki bədii şəkildə əks etdirən nadir əsərlərdən biridir.

## ƏDƏBİYYAT SİYAHISI

Allen R. The Arabic Literary Heritage/ R. Allen. –Cambridge: University Press, -1998. -476s.

At-Talib, M.H. *Folk Epic Traditions in Arabic Literature*/ M.H. At-Talib. - Cairo, - 2009. – 256p.

Hitti P.K. History of the Arabs / P.K. Hitti. – London: Macmillan, -1970. -767s.

Qasımova, A.Ş. Cahiliyyət ərəblərin əqli-mənəvi durumu/ A. Qasımova. – Bakı: Nurlan, - 2007. - 217s.

Qurani-Kerimin Azərbaycan dilindən tərcüməsi: Yenidən işlənmiş XVII nəşr / ərəb dilindən tərcümə edənlər Z. Bünyadov, V. Məmmədəliyev - Bakı: Nurlar, -2015. -632s.

Мутаххари, М. Правовой статус женщины в Исламе/ М. Мутаххари. – Москва: Садра, - 2013. – 400стр.

Пиотровский М. Б. Коранические сказания/ М. Пиотровский. – Москва: Наука, - 1991. – 225стр.

Эрсан О. Женщина в Исламе ее права и достоиства / О. Эрсан. – Москва: САД, - 2009. - 176стр.

ابن الكلبي، هشام بن محمد. كتاب الأنساب. - بيروت:دارالكتب، - 1981.-672ص.

ابن حزم، علي بن أحمد بن سعيد. جمهرة أنساب العرب.- بيروت: دار الكتب العلمية، - 1983. -672ص.

ابن خلدن، عبد لرمن بن محمد. كتاب لعبر وديوان المبتدأ الجبر في أيام العرب والعجم و البربر و من حاصرهم من ذوي السلطان الآكبر: [في 7 مجلدات]. – بيروت: دار الفكر، المجلد الأول. -2000. -606ص.

ابن خلدن، عبد لرمن بن محمد. كتاب لعبر وديوان المبتدأ الجبر في أيام العرب والعجم و البربر و من حاصرهم من ذوي السلطان الآكبر: [في 7 مجلدات]. – بيروت: دار الفكر، المجلد السادس. -2000. 500ص

ابن هشام، عبد الملك بن هشام. السيرة النبوية:[في 2 مجلدات]. –القاهرة: دار إحياء الكتب العربية،المجلد الثاني. -1976. .- 442ص

الجاحظ. البيان والتبيين. القاهرة: درا الهلال، -1975. – 456ص.

زيدان، جرجى. تاريخ االعربي الجهلي.- القاهرة: دار الهلال، -1960. -404ص.

ضيف، شوقي. اريخ الآدب العربي. –القاهرة: المعارف، - 1960. -432ص.

الطبري، محمد بن جرير. تاريخ الرسل والملوك:[في 11 مجلدات]. – بيروت: دار التاث، ـالمجد الأول. -1967. -402ص.

المفريزي، تقي الدين أحمد بن علي . المواعظ والاعتنار بزكرالخطط والأثار: [في 2 مجلدات]. –القاهرة: مطبعة النيل، المجلد السادس. – 1908. – 414ص.

هسين، طه. في الأدب الجاهلي :[في 2 مجلدات]. – القاهرة: دار الكب المصرية، المجلد السادس. -1926. -426ص.